# "Teatrın vəzifəsi cəmiyyəti mütərəqqi ideyaların arxasınca aparmaqdır"

**Teatr əbədiyaşar sənətdir. Heç vaxt aktuallığını itirmir. Uilyam Şekspir dünyanı bir teatr səhnəsinə, insanlar isə bu səhnənin aktyorlarına bənzədirdi. Bu baxımdan, indi ətrafımızda baş verən prosesləri izlədikdə dünyanın siyasi səhnəsində olduqca ciddi, dramatik tamaşaların oynanıldığına şahidlik edirik. Hətta böyük dövlətlərin başçıları dünyanın taleyüklü məsələlərini həll edərkən ortaq məxrəcə gələ bilməyəndə, "Bu, bir şou idi, biz göstərdik" kimi ifadələrlə gərginliyi azaltmağa çalışırlar.**

Məntiqlə teatrın yaşı bəşər övladının yaşı qədərdir, yəni qədimdir... Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Xalq artisti Hacı İsmayılovla söhbətimiz teatrımızın dünəni, bu günü və gələcəyi haqqında oldu. Teatrımızın keçdiyi uzun yoldan söhbət açan Xalq artisti dedi:

- 1873-cü ildə görkəmli dramaturqumuz Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" tamaşası ilə pərdələrini tamaşaçıların üzünə açan Azərbaycan peşəkar teatrı 152-ci mövsümünü yaşayır. Azərbaycan teatrı Axundzadə təfəkküründən yararlanaraq Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, İlyas Əfəndiyev, Sabit Rəhman və bir çox dramaturqun sayəsində təşəkkül tapıb. Onu da qeyd edim ki, Azərbaycan teatrı yarandığı gündən çox keşməkeşli, amma çox şərəfli yol keçib. İftixarla deyə bilərik ki, xalqımızın görkəmli ziyalıları, dramaturqlar, görkəmli sənət adamları ölkəmizin hüdudlarından kənarda - Orta Asiyada, Şimali Qafqazda da real olaraq teatrların yaranmasında böyük xidmətlər göstəriblər. Azərbaycan Teatr Xadimləri İttifaqının da tarixi çox qədimdir. 1897-ci ildən başlayaraq "Artistlər birliyi", "Türk-Azəri birliyi", "Türk birliyi", "Teatr cəmiyyəti", müstəqilliyimiz dövründən isə "Teatr Xadimləri İttifaqı" adı ilə fəaliyyət göstərir.

## "Az bir vaxtda çox iş görə bildik"

Xalq artisti dedi ki, teatrımızın keçdiyi bu yola baxanda görürük ki, müstəqilliyimizin ilk illərindən 2023-cü ilə kimi teatrların içində müəyyən istisnalar olmaqla bir durğunluq yaşanıb: "Bunun çox sadə bir izahı var. Bölgələrdə işləyən teatrlarla koordinasiya tamamilə kəsilmişdi. Regionlarda fəaliyyət göstərən teatrların nə ilə məşğul olduqları, nə iş gördükləri, hansı tamaşaları oynadıqlarını bilən yox idi. Onlar tam müstəqil, özbaşına fəaliyyət göstərirdilər. Özləri nə isə edir, nə isə göstərirdilər. Düzdür, Teatr Xadimləri İttifaqı vaxtaşırı müəyyən festivallar, tədbirlər keçirirdi. Amma bunlar Azərbaycan teatrının inkişafına xidmət etmirdi. Nəhayət, 2023-cü ilin may ayının 15-dən Azərbaycan Teatr Xadimləri İttifaqı ilə Mədəniyyət Nazirliyi birgə layihəyə başladı. Ona şərti olaraq "Qonaq teatr" adı verildi. "Qonaq teatr" işə bölgələrdə fəaliyyət göstərən teatr kollektivlərini dəvət etməklə başladı. Bir il ərzində 12 teatr kollektivi Teatr Xadimləri İttifaqının böyük zalında tamaşalarını nümayiş etdirdilər. İttifaqın tarixində ilk dəfə olaraq ölkəmizə xaricdən teatr kollektivlərini dəvət etdik. Antalya Böyük Şəhər Bələdiyyə Teatrı 5 gün ərzində Bakıda iki tamaşa göstərdi. Yeri gəlmişkən deyim ki, "Gec qalanlar" tamaşasının rejissoru həmyerlimiz, Gənc Tamaşaçılar Teatrının aktyoru və rejissoru Nofəl Vəliyev idi. Digər dəvətlimiz - Trabzon Sənəd Teatrı oldu. Kollektiv Bakıda iki gün öz tamaşalarını nümayiş etdirdi. Trabzonlular Firuz Mustafanın "Neytral zona" adlı əsərinə səhnə həyatı vermişdilər. Çox uğurlu bir tamaşa idi. Sual oluna bilər ki, "Qonaq teatr" layihəsi nə ilə fərqlənir? Tamaşaçıların çoxluğu ilə. Bir faktı qeyd etmək yerinə düşər: inanın ki, zal, anfiteatr tamaşaçı ilə dolu idi. Hətta yer çatışmadığına görə, bəzi tamaşaçılar geri qayıtmalı oldular. İşimizi bununla bitmiş hesab etmədik. Bunun ardınca paytaxt teatrlarının bölgələrə qastrol səfərlərini təşkil etdik. Bakı teatrları bölgələrə getdilər. İşimizi Mədəniyyət Nazirliyi, Akademik Milli Dram Teatrı və Azərbaycan Televiziyası ilə bir yerdə təşkil etdiyimiz "Bölgə teatrlarının Bakı premyerası" adlı layihə ilə yekunlaşdırdıq. Beləliklə, az bir zamanda - 2023-2025-ci ildə teatrların içində bir canlanma əmələ gəldi".

Xalq artisti deyir ki, Teatr Xadimləri İttifaqında 5 - dramaturgiya, aktyor, rejissorluq və ekspremental rejissura və bölgələr üzrə iş labarotoriyaları fəaliyyət göstərir. Bu labarotoriyalara həm peşəkarlar, həm də başqa bir peşənin sahibləri, teatrla bağlılığı olmayan, amma teatrı çox sevən gənclər gəlirlər. Onların gəlişi də onunla nəticələnir ki, hər il Milli Teatr Günündən əvvəl Mustafa Mərdanov səhnəsində onların hazırladıqları tamaşalara baxış festivalı təşkil olunur. Bu il martın 4, 5, 6 və 7-də də baxış festivalları keçirilib və artıq nəticələr bəllidir. Onlara gördükləri işlərə görə sertifikatlar, diplomlar, təşəkkürnamələr veriləcək.

Öyrənirik ki, Teatr Xadimləri İttifaqının binası 1971-ci ildə tikilib. O vaxtdan da bu binanın böyük zalında, dəhlizində cüzi kosmetik təmir işləri görülüb. Hazırda böyük zal əsaslı təmir olunur. Yeni işıqlandırma, səsləndirmə sistemi yaradılır. Oturacaqlar, pərdələr tam yenisi ilə əvəz edilir. Hacı İsmayılov dedi ki, bu da bizim işimizin keyfiyyətinə də təsirsiz ötüşməyəcək, biz daha yaxşı işlərə imza ata biləcəyik.



Xalq artistinin sözlərinə görə, hər il martın 10-da ittifaq Azərbaycan teatr sənətinin inkişafında xidmətlərinə görə bir çox sənətkarı təltif edir, mükafatlandırır. Teatr Xadimləri İttifaqının "Sənətkar" medalı, "Qızıl dərviş" mükafatları var. 10 il bu mükafatın da verilməsi dayandırılmışdı: "Biz bu mükafatın verilməsini də yenidən bərpa etmişik. Teatr Xadimləri İttifaqının binasında təmir getdiyi üçün bayramımızı Akademik Milli Dram Teatrının kollektivi ilə bir yerdə keçirdik".

Hacı İsmayılov keçirdikləri tədbirlərdən, gördüyü işlərdən qürurla danışır: "Təsəvvür edirsinizmi, bir il ərzində 32 tədbir keçirmişik. İşlərimiz davam edir. Çalışırıq ki, yeni işlərə, layihələrə müəlliflik edək. "Baxış 5" festivalının qalibi, "Zəfər" studiyasının nəzdində fəaliyyət göstərən Mustafa Mərdanov səhnəsinin hazırladığı Əli Əmirlinin "Kişi və qadın" tamaşasını iyul ayında Trabzon şəhərində keçiriləcək teatr festivalında nümayiş etdirmək niyyətimiz var.

İttifaq olaraq çalışırıq ki, bizə müraciət edənlərə köməyimiz dəysin. Fəaliyyətimizi elə istiqamətləndirmək istəyirik ki, Azərbaycan mədəniyyətinin, teatrının inkişafında bizim də payımız olsun. Təki, kimsə gəlib kömək istəsin, biz də onların arzularını yerinə yetirək. İttifaqımızın qapıları heç bir ayrı-seçkilik olmadan bütün teatr kollektivlərinin, teatr sevərlərin üzünə açıqdır. Təki işləmək arzusu olsun".

## "Yeni tamaşaçı nəsli yetişib"

Teatr sənəti elə bir möcüzəli sənətdir ki, başqa sənət növləri müəyyən dövr keçdikdən sonra aktuallığını itirib tarixin səhnəsini tərk etsə də, teatr sənəti əbədiyaşarlıq ömrü qazanaraq, həyatını davam etdirir. Xalq artisti deyir:

- Akademik Milli Dram Teatrının aparıcı aktyoru kimi faktiki olaraq 7 tamaşada oynayıram. Son zamanlar bir şeyi müşahidə etmişəm - qarlı-çovğunlu havada belə, zallarımız tamaşaçı ilə dolur. Bu günlər Mikayıl Müşfiqə həsr olunmuş "Uzun sevda yolu" tamaşasını oynayan zaman fikirləşirdik ki, yollar sürüşkən, soyuq, qar, yağış olduğu üçün yəqin tamaşaya az adam gələcək. İnanın ki, zal ağzına kimi dolu idi. Boş yer yox idi. Ən əsası, son vaxtlar mən bir şeyi müşahidə etmişəm. Yeni bir tamaşaçı nəsli yetişib. Onlar sona kimi tamaşaya baxır, pərdələr bağlanandan sonra belə, zalı tərk etməyib aktyorları alqışlayırlar. O qədər görmüşəm ki, tamaşa qurtarmamış tamaşaçı zalı tərk etsin...

Buradan belə nəticəyə gəlmək olar ki, tamaşaçıların onları düşündürən əsl sənətə, sağlam mənəvi duyğuya ehtiyacı yaranıb. Ekranlarda göstərilən, sənətdən və əxlaqdan uzaq, düşük parçalar insanları yorub. Bu günümüzün adamları sağlam mənəvi duyğunu, düşüncəni teatr səhnəsində tapa bilir. Teatrda hər şey göz-gözə, nəfəs-nəfəsə, əl-ələdir. Teatr canlı sənət növüdür. Burada tamaşaçı ilə səhnədə obraz yaradan aktyor arasında canlı bağlantı yaranır.

Teatrın öz qayda-qanunu, tarixi ənənəsi var. Teatrın vəzifəsi cəmiyyəti mütərəqqi ideyaların arxasınca aparmaq, cəmiyyəti sağlamlaşdırmaqdır. İnsanların mənəvi sağlamlığı teatr, ədəbiyyat, bədii yaradıcılıq masasından keçir. Teatr binaları insanların mənəvi ruhunu yüksəldən, sağlamlaşdıran bir məbədgahdır.

## "Bizə Zəfər yaşadan qəhrəmanlara səhnə həyatı vermək üçün zaman lazımdır"

Ömrünü səhnədə keçirmiş Hacı İsmayılovla söhbət edərkən sənətkar bir məqamı da xüsusi olaraq vurğuladı:

- Bir həqiqət var ki, adam isti-isti ağrını heç vaxt hiss etmir. Məsələn, sovet kinosunu götürsək, müharibə bitəndən sonra uzun müddət filmlər çəkilmədi. Yalnız müəyyən dövr keçəndən sonra müharibə ilə əlaqədar filmlər ərsəyə gətirildi. Bu baxımdan, bizdə hələ hər şey isti-istidir. O qədər böyük hadisə olub ki, hamısını olduğu kimi dərk edə bilmirik. 44 gündə qazandığımız böyük Zəfər bizə yuxu kimi gəlir. Sanki möcüzə baş verib. Hər şey reallıqdan çox əfsanə kimi görünür. Belə bir zəfəri tərənnüm etməyə, onun bədii dildə təqdimatını verməyə güc, istedad lazımdır.

İllər keçdikcə, sözsüz ki, çox gözəl filmlər çəkiləcək, tamaşalar yaranacaq. 30 illik münaqişə dövründə ən yaddaqalan filmimiz "Fəryad" olub. Zəfəri qazanan bizim şəhidlər, qazilər, Azərbaycan əsgəri, gənclərimizdir. Müzəffər Ali Baş Komandan da bunu dəfələrlə deyib. Sözsüz ki, belə qəhrəmanların həyatı obrazlaşmalı, səhnələşdirilib əbədiyaşarlıq qazanmalıdır. Onların hər birinin keçdiyi döyüş yolu, göstərdiyi hünər hazır ssenaridir.

Məni sevindirən bir məsələ var. Bizim Rus Dram Teatrında çalışan rejissor İlqar Səfa "Doğma torpaq" adlı film çəkmişdi. O film çəkilən zaman torpaqlarımız hələ işğaldan azad edilməmişdi. Filmi təhvil verən ərəfədə elə oldu ki, biz 44 günlük müharibədə zəfər çaldıq. Torpaqlarımız azad oldu. Biz qalib xalq olduq. O, bütün bunları əlavə edərək filmin ikinci hissəsini çəkdi. Eşitdiyimə görə, bu yaxınlarda "Doğma torpaq" filminin premyerası olacaq.

## "Teatra gələn gənclər tez məşhurlaşmaq istəyirlər"

Qocaman səhnə ustası deyir ki, son vaxtlar teatra istedadlı gənclər də gəlir. Amma bir məsələ var ki, gələnlər istəyirlər ki, çox tez məşhurlaşsınlar: "Unudurlar ki, hər şeyi, xüsusilə yaxşını tez qazanmaq olmur. Teatrlarda çox istedadlı gənc aktyorlar var. Belə gənclərə hər il "Ümid" mükafatı veririk. Bu mənəvi dəstəklə yanaşı, həm də maddi həvəsləndirmə deməkdir. Biz bu il 3 gənc aktyorumuzu "Ümid"lə mükafatlandırmaq qərarına gəlmişik".





Azərbaycan kino sənətinə Mustafa müəllim kimi obrazı vermiş aktyor Hacı İsmayılov özü haqqında deyir ki, mən ruhən Mustafayam: "Mustafa çox ideal bir adamdır. İndi elə adamlar həyatda çox azdır. İddiasız, təmiz, öz peşə borcunu ləyaqətlə yerinə yetirən adamdır Mustafa. Dərsini deyir, ekskursiyaya gedir, ailəsinə baxır, balalarını çox istəyir. Vətənpərvərlik hissi də çox güclü olan bir adamdır Mustafa. O deyir ki, "Nuriyyə, mən xəcalət çəkirəm ki, mənim tələbələrim indi Qarabağda, o ağır döyüşlərdə sinəsini düşmənlə üz-üzə qoyublar, amma mən burada, İstanbulda alverlə məşğul oluram". Bunu demək üçün insanda inam, etibar, vicdan olmalıdır. Arzum budur ki, cəmiyyətdə Mustafa müəllim kimi adamların sayı daha çox olsun".

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 11 mart (№53).- S.15.